# Tarixin ən qanlı faciəsi - Xocalı soyqırımı

## Xocalı faciəsi anılıb

***Heydər Əliyev Mərkəzində Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar tədbir keçirilib.***

***Anım mərasiminin iştirakçıları əvvəlcə soyqırımına həsr olunan rəsm sərgisinə baxıblar.***

***Mərkəzin zalında təşkil olunan tədbiri rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova açıb, Xocalı soyqırımı qurbanlarının və torpaqlarımızın bütövlüyü uğrunda həlak olan şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***








XX əsrdə ermənilər tərəfindən törədilən və xalqımıza qarşı yönəldilmiş ən dəhşətli cinayətlərindən biri olan Xocalı faciəsi haqqında Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev geniş çıxış edib. RİH başçısı nitqində Xocalı soyqırımının Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olduğunu, ermənilərin davamlı olaraq həyata keçirdiyi etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində soydaşlarımızın zaman-zaman tarixi torpaqlarından qovulduğunu, qaçqına, məcburi köçkünə çevrildiyini və bütün bunların kütləvi qırğınlarla müşayiət olunduğunu bildirib.

Səbuhi Abdullayev 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə baş vermiş bu qanlı faciənin təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır, ən qatı cinayətlərdən biri olduğunu, Xocalı soyqırımının ötən əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayandığını qeyd edib.

Həmin gecə 613 nəfərin öldürüldüyünü, 1000 nəfərin əlil olduğunu deyən natiq, qətlə yetirilənlərin 106 nəfərinin qadın, 63 nəfərinin azyaşlı uşaq, 70 nəfərinin isə qocalar olduğunu bildirib. Ermənilərin 8 ailəni tamamilə məhv etdiyini diqqətə çatdıran Səbuhi Abdullayev 25 uşağın hər iki valideynini, 130 uşağın valideynlərindən birini itirdiyini, 1275 nəfərin girov götürüldüyünü, onlardan 150 nəfərinin taleyinin indi də məlum olmadığını vurğulayıb.

Etnik təmizləmə və soyqırımına əsil siyasi qiymətin ulu öndər Heydər Əliyev tərəfindən verildiyinə diqqət çəkən RİH başçısı 1994-cü ildə Azərbaycan parlamentinin 26 fevralın Xocalı soyqırımı günü kimi qeyd olunması barədə qərar qəbul etdiyini vurğulayıb.

Dünyanın bir çox dövlətlərinin, Xocalı faciəsini soyqırımı kimi pisləndiyini qeyd edən Səbuhi Abdullayev 17 may 2008-ci ildə İslam Əməkdaşlıq Təşkilatının və İSESKO-nun toplantısında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət - Qarabağa Azadlıq" kampaniyasının başlanıldığını və 26 fevralın İƏT-ə üzv ölkələrdə "Xatirə Günü" kimi qeyd olunmasının qərara alındığını bildirib.

Torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində Prezident cənab İlham Əliyev tərəfindən bütün zəruri tədbirlərin görüldüyünü, ölkə başçısının Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı imzaladığı sərəncama əsasən tarixən burada yaşamış dinc əhalinin öz doğma yurdlarına qayıtması üçün həmin ərazilərdə əsaslı yenidənqurma işlərinin aparıldığını və bütün məcburi köçkünlərimizin öz elinə, obasına qayıdacağı günün uzaqda olmadığını deyib.

Tədbirdə Şuşa Rayon İcra Hakimiyyətinin nümayəndəsi Əhəd Həsənov, Qəbələ Müalicə Diaqnostika Mərkəzinin həkimi, Xocalı köçkünü Kamal Məmmədov və digərləri çıxış edib.

Çıxış edənlər ermənilərin həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasətinin faciəli nəticələrindən, Xocalıda dinc insanlara qarşı törədilən qanlı terror hadisələrindən, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində ölkə rəhbərliyinin genişmiqyaslı fəaliyyətindən söhbət açıb.

Sonda Qəbələ Mədəniyyət Mərkəzi tərəfindən hazırlanmış ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

## Xocalı soyqırımı ilə bağlı anım tədbiri keçirilmişdir

*Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzində Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı anım tədbiri keçirilib.*

*Tədbirdə soyqırım qurbanlarının, xalqımızın azadlığı və torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

*Çıxışlarda bildirilib ki, XX-ci əsrin əvvəllərindən başlayaraq erməni millətçiləri Azərbaycan xalqına, bütün türk dünyasına qarşı etnik təmizləmə və soyqırımı siyasəti aparıb və bu gün də onlar öz məkrli siyasətlərini planlı şəkildə davam etdirirlər.*

*Ermənilərin tarix boyu irəli sürdükləri ərazi iddiaları, etnik təmizləmə, soyqırımı və terror siyasəti tədbir iştirakçıları tərəfindən pislənilib.*

*Yekunda Xocalı soyqırımına həsr olunmuş videoçarx nümayiş etdirilib.*

***FHN-nin Şimal-qərb Regional Mərkəzinin ictimaiyyətlə əlaqə və təbliğat sektoru.***

## Rəsm sərgisi

***Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar Qəbələ Mədəniyyət Mərkəzində "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm sərgi-müsabiqəsi təşkil olunub. Rayon gənclər və idman idarəsinin, dövlət rəsm qalereyasının və incəsənət məktəbinin birgə təşəbbüsü ilə keçirilən sərgidə 60-dək həvəskar məktəbli rəssamın Xocalı soyqırımına həsr etdiyi təsviri sənət nümunələri nümayiş etdirilib.***

Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunduqdan sonra sərgini Qəbələ Dövlət Rəsm Qalereyasının əməkdaşı Təzəgül Nəsmiyeva açaraq ermənilərin tarixən xalqımıza qarşı həyata keçirdiyi etnik təmizləmə, terror siyasətindən ətraflı danışıb.

Tədbirdə regional mədəniyyət və turizm idarəsinin baş məsləhətçisi Nargilə Qafarova, rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək Xocalı soyqırımının ağır nəticələri haqqında geniş məlumat verib.

Sərgi-müsabiqəyə baxış keçirildikdən sonra qaliblərin mükafatlandırılması olub. Münsiflərin rəyi əsasında mövzu həllinə, kompozisiya quruluşuna və işlənilmə texnikasına görə ən maraqlı rəsm nümunələrinin müəllifləri Nərgiz İzaxarova birinci yerə, Məryəm Məmmədova, Cəmilə Daşdıyeva ikinci yerə, Əmrah Məmmədov, Qənirə Qafarova və Yusif Bəşirov üçüncü yerə layiq görülüb.



Qaliblər Fəxri fərmanlar və xatirə hədiyyələri ilə mükafatlandırılıb.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**